# ƏHLİ-BEYT MƏZHƏBİ

Əbu Zeyd Həbibli

SUNNA.AZ

## Əhli-Beyt Məzhəbi Silsiləsindən 1-ci hissə

# Mutə Nikahı (yəni Siğə) barədə Əli ibn Əbi Talibin *(radiyallahu anhu)* Peyğəmbərdən ﷺ rəvayəti:

*Müəllif:*

**Əbu Zeyd**

### *Əhli-Sünnət Mənbəyində:*

**Əli ibn Əbi Talib** İbn Abbasa *(radiyallahu anhum)* belə deyir; ***"Peyğəmbər ﷺ Xeybər günü siğəni və ev uzunqulağının ətini qadağan etdi."*** "Səhih əl-Buxari" hədis: 5115

### *Zeydi Şiələrinin Mənbəyində:*

Zeyd ibn Əli öz atasından (yəni; Zeynulabidindən), o da babasından (yəni; Hüseyndən) **Əlinin** *(radiyallahu anhu)* belə dediyini rəvayət etdi: ***"Peyğəmbər ﷺ Xeybər günü siğəni qadağan etdi."*** "Müsnəd İmam Zeyd" səh. 271

### *Cəfəri Şiələrinin Mənbəyində:*

**Əli ibn Əbu Talib** *(radiyallahu anhu)* belə dedi; ***"Peyğəmbər ﷺ Xeybər günü siğəni və uzunqulağ ətini qadağan etdi."*** "əl-İstibsar" 3/178 hədis: 27, "Təhzib əl-Əhkam" 7/251

***Qeyd:*** Kitabın müəllifi Əbu Cəfər ət-Tusi bu hədisi qeyd edəndən sonra belə yazır: "*Biz bu hədisi təqiyyəyə aid edirik (yəni İmam bu sözü təqiyyə, yəni; yalan əsasında deyib). Çünki, bu rəvayət Əhli-Sünnətin məzhəbinə müvafiqdir.*" "əl-İstibsar" 3/178

### *İsmaili Şiələrinin Mənbəyində:*

***"Peyğəmbər ﷺ mutə nikahını (yəni; siğəni) qadağan etdi, bu həmçinin*** **Əlidən** *(radiyallahu anhu)* ***də nəql olunmuşdur."*** "Dəaim əl-İsləm" hədis: 858

### *İbadiyyə Məzhəbinin Mənbəyində:*

Cabir ibn Zeyd deyir ki; mənə **Əli ibn Əbi Talibin** *(radiyallahu anhu)* belə dediyi nəql olundu: ***"Peyğəmbər ﷺ Xeybər günü qadın mutəsini (yəni; siğəni) və ev uzunqulağının ətini qadağan etdi."*** "əl-Cəmi əs-Sahih Musnəd ər-Rabii ibn Həbib" hədis: 391

Siğənin haram olması o qədər açıq və dəqiq bir məsələdir ki, demək olar ki, bütün İslam firqələrinin təməl kitablarında bu barədə kifayət qədər hədislər rəvayət olunmuşdur. Təkcə bunu qeyd etmək kifayət edər ki, siğənin Xeybər günü haram qılındığını göstərən hədisi, bütün İslam mənbələri Əli ibn Əbi Talibdən *(radiyallahu anhu)* rəvayət etmişlər. Yəni, bu hədisi ***Əhli-Sünnət*** ilə yanaşı ***İbadiyyə*** məzhəbi, ***İsmaili***, ***Cəfəri*** və ***Zeydi*** şiələri də rəvayət etmiş, və bu rəvayətin Əlidən nəql olunması üzərində ittifaq etmişlər.

Böyük şiə alimi ***Əbu Cəfər ət-Tusi*** siğənin bir utanc və zillət qaynağı olduğunu dolayısı yolla belə ifadə etmişdir: ***"Əhli-beytdən olan bir qadınla siğə etmək olmaz. Çünki belə bir hal, o qadın üçün zəlillik və onun ailəsi üçün isə utanc qaynağıdır."*** ("Təhzib əl-Əhkam" 7/253)

***Ey Tusi! Məgər Əhli-beytdən olan bir qadın üçün zillət və utanc qaynağı olan bir şey, digər müsəlman qadınları üçün şərəf və izzət sayılır ?!***

# Əhli-Beyt Məzhəbi Silsiləsindən 2-ci hissə

**Mutə Nikahı (yəni Siğə) barədə İmam Cəfər əs-Sadiqin sözləri:**


***Müəllif:***

**Əbu Zeyd**


## *Əhli-Sünnət Mənbəyində:*

Bəssam əs-Sayrafi deyir ki; **Cəfər ibn Məhəmməddən** *(rahiməhullah)* mutə nikahı barədə soruşdum. Mənə belə cavab verdi: ***"Bu zinadır."***

Beyhəqi "əs-Sünən əl-Kubra" 14182-ci rəvayət.

## *Zeydi Şiələrinin Mənbəyində:*

İbn Əsbahani deyir ki; **Cəfər ibn Məhəmməddən** *(rahiməhullah)* mutə nikahı barədə soruşdum. Mənə dedi: ***"Onu mənə vəsf elə!"*** Mən dedim: ***"Kişi qadınla görüşür və ona deyir ki; mən səninlə bu dirhəmin (yəni bu pulun) müqabilində bir dəfə evlənmək (yəni cinsi əlaqədə olmaq) istəyirəm."*** İmam belə cavab verdi: ***"Bu zinadır."***

Əhməd ibn İsa *(İmam Zeyd ibn Əlinin nəvəsidir)* "Əməli" 3/14

## *Cəfəri Şiələrinin Mənbəyində:*

Abdullah ibn Sinan deyir: **Cəfər ibn Məhəmməddən** *(rahiməhullah)* mutə nikahı barədə soruşdum. Mənə belə cavab verdi: ***"Özünü bununla mundarlama!"***

"Bihar əl-Ənvar" 100/318

Hişam ibn Həkəm, **Cəfər ibn Məhəmmədin** *(rahiməhullah)* mutə nikahı barədə belə dediyini nəql etmişdir: ***"Biz tərəflərdə bunu fasiqlərdən başqası etməz."***

"Bihar əl-Ənvar" 100/318

## *İsmaili Şiələrinin Mənbəyində:*

Qazı ən-Noman əl-Məğribi rəvayət edir ki; Bir nəfər **Cəfər ibn Məhəmməddən** *(rahiməhullah)* mutə nikahı barədə soruşdu. İmam dedi: ***"Onu mənə vəsf elə!"*** O dedi: ***"Kişi qadınla görüşür və ona deyir ki; mən səninlə bir-iki dirhəmin müqabilində, bir-iki günlük evlənmək istəyirəm."*** İmam belə cavab verdi: ***"Bu zinadır. Bunu fasiqlərdən başqası etməz."*** "Dəaim əl-İsləm" hədis: 2/229

Böyük şiə alimi ***Əbu Cəfər ət-Tusi*** siğənin bir utanc və zillət qaynağı olduğunu dolayısı yolla belə ifadə etmişdir: ***"Əhli-beytdən olan bir qadınla siğə etmək olmaz. Çünki, belə bir hal, o qadın üçün zəlillik və onun ailəsi üçün isə utanc qaynağıdır."*** ("Təhzib əl-Əhkam" 7/253)
***Ey Tusi! Məgər Əhli-beytdən olan bir qadın üçün zillət və utanc qaynağı olan bir şey, digər müsəlman qadınları üçün şərəf və izzət sayılır ?!***

**Şiə kitablarından maraqlı və uydurma bir rəvayət:** Əhli-Sünnətdən olan Abdullah ibn Umeyr İmam Məhəmməd əl-Baqirin yanına gəlib, ona belə deyir: "Qadın mutəsi barədə nə deyirsən?" İmam deyir: "Allah, onu öz kitabında və Peyğəmbərinin dili ilə halal etmişdir. O, Qiyamət gününə qədər halaldır." İbn Umeyr ona belə cavab verir: ***"Sənin qadınlarınla, qızlarınla, bacılarınla və bibi qızlarınla siğə edilsə sənə xoş olarmı?"*** Bu sözü eşidən kimi imam üzünü çevirdi. ("əl-Kəfi" 5/271, "Bihar əl-Ənvar" 100/317-318. Məclisi "Miratul-Uqul" 20/228-də, Bəhbudi "Səhih əl-Kəfi" 3/45-də bu rəvayəti doğru və məqbul saymışlar)

*Müəllif:*

**Əbu Zeyd**

## Saqqalın uzadılması, Bığların qısaldılması və İsbal barədə:

❍ **Peyğəmbər** ﷺ demişdir: Allah, Adəm (əleyhissəlam) peyğəmbərə gözəllik olaraq qap-qara saqqal əta etmiş və ona bu cür demişdir: ***"Bu saqqaldır. Səni və Qiyamət gününə qədər sənin övladlarından olan kişiləri bununla gözəlləşdirdim."*** (Məclisi "Hilyətul-Muttəqin" səh. 244 rəvayəti müxtəsər olaraq nəql etdim)

❍ **Peyğəmbər** ﷺ demişdir: ***"Məcusilər** (yəni atəşpərəstlər) **saqqallarını qırxar, bığlarını isə uzadarlar. Biz müsəlmanlar isə bığlarımızı qısaldar və saqqallarımızı uzadarıq."*** (Məclisi "Biharul-Ənvar" 73/112)

❍ **Peyğəmbər** ﷺ demişdir: ***"Bığlarınızı qısaldın və saqqallarınızı öz halına buraxın, məcusilərə oxşamayın!"*** (Hurr əl-Amili "Vəsailuş-Şiə" 1658-ci rəvayət)

❍ **Peyğəmbər** ﷺ demişdir: ***"Bığlarını qısaltmayan bizdən deyildir."*** (Təbərsi "Məkərimul-Əxlaq" səh. 67 və ya 87)

❍ **İmam Cəfər əs-Sadiq** (rahimahullah) dərisinin ağlığı görsənənə qədər bığlarını qısaldardı. (Kuleyni "Kitab əl-Kəfi" 6/306 və ya 487)

❍ **Peyğəmbər** ﷺ Əbu Zərə (radıyallahu anhu) nəsihətində belə demişdir: ***"Ey Əbu Zərr! Möminin paltarı baldırının yarısında durmalıdır. Baldırından topuğuna qədər düşməsində isə heç bir günah yoxdur."*** (Tusi "əl-Əməli" səh. 538)

❍ **Cəfər əs-Sadiq** (rahimahullah) uzun olan paltarının qısaldılmasını əmr etmiş və atasının bu cür dediyini nəql etmişdir: ***"Paltarın topuqdan aşağı düşən hissəsi oddadır."*** (Hurr əl-Amili "Vəsailuş-Şiə" 3/367, 5852-ci rəvayət)

❍ **Əli ibn Əbi Talib** (radıyallahu anhu) paltarı uzun olan bir gənc görmüş və ona nəsihət edərək belə demişdir: ***"Paltarını yuxarı qaldır! Çünki bu, sənin paltarının hifzi və qəlbinin təqvası üçün daha münasibdir."*** (Kuleyni "Kitab əl-Kəfi" 6/457 və ya 652)

Yuxarıda qeyd olunan hədislər şiə kitablarında rəvayət olunan hədislərin çox cüzi bir hissəsidir. Deməli, saqqalın uzadılması (bir əl tutumundan az olmaması), bığların qısaldılması və kişinin paltarının topuqdan aşağı düşməməsi, Əhli-Sünnətin və Şiə mənbələrinin ittifaqı ilə Peyğəmbərin ﷺ sünnəti, Əhli-beytin məzhəbi və bu dinin şəri tələblərindəndir. Bu həqiqətləri bilməyənlər qoy öyrənsinlər! Bilənlər isə əməl etsinlər və bilməyənlərə öyrətsinlər! Bütün bu gerçəklikləri avam şiələrdən gizlədənlər və dinin bu əhkamlarına əməl edənlərə "Vəhhabi" və s. kimi ləqəblər qoşaraq, onları məsxərəyə qoyanlar isə qoy utansınlar və bu məsxərə ilə əslində kimlərə lağ etdiklərini dərindən bir düşünsünlər!!!

## Əhli-Beyt Məzhəbi Silsiləsindən 4-cü hissə

**Dəstəmazda ayaqların yuyulmasına dair Əhli-Beyt imamlarının sözləri:**

***Müəllif:***

**Əbu Zeyd**

### *Əhli-Sünnət Mənbəyində:*

Tabiinlərdən olan Əbu Hayyə əl-Kufi **Əlinin** *(radiyallahu anhu)* necə dəstəmaz aldığını vəsf edərək demişdir:Belə ki, **Əli** *(radiyallahu anhu)* dəstəmaz aldığı vaxt *ayaqlarını üç dəfə yumuş* və ***"Mən Peyğəmbərin ﷺ bu cür dəstəmaz aldığını gördüm"*** demişdir.

"Sünən ət-Tirmizi" hədis: 48,"Sünən ən-Nəsəi" hədis: 115, "Sünən İbn Məcə" hədis: 465.

### *Zeydi Şiələrinin Mənbəyində:*

**Zeyd ibn Əli, atası Əli Zeynulabidindən, o da öz atası Hüseyndən, o da atası Əli ibn Əbi Talibdən** *(radiyallahu anhum)* Peyğəmbərin ﷺ necə dəstəmaz aldığını nəql edərək deyir: ***"Üç dəfə üzünü yudu, üç dəfə ağız və burnuna su aldı, bir dəfə başını və qulaqlarını məsh etdi və üç dəfə ayaqlarını yudu."*** "Müsnəd İmam Zeyd" 1-ci rəvayət.

**Əli** *(radiyallahu anhu)* deyir: "Dəstəmaz almaq üçün oturmuşdum. Elə bu vaxt Peyğəmbər ﷺ gəldi və mənə gözəl şəkildə dəstəmaz almağın qaydasını öyrətdi. *Mən ayağımı yuduğum vaxt,* o ﷺ mənə dedi: ***"Ey Əli! Barmaqlarının arasını da yu ki, sənə Cəhənnəm odu toxunmasın."***

Əhməd ibn İsa (İmam Zeydin nəvəsi, Zeynulabidinin isə nəticəsidir) "Əməli" 1/26.

Əhli-Beyt imamlarından olan **Abdullah ibn Abbas** *(radiyallahu anhu)* da dəstəmaz alarkən ayaqlarını yuyar və ayaq barmaqlarının arasını təxlil edərdi. "Əməli" 1/18.

### *Cəfəri Şiələrinin Mənbəyində:*

**Əli** *(radiyallahu anhu)* məktubunda Məhəmməd ibn Əbi Bəkrə və Misir əhlinə dəstəmazın necə alınacağını bəyan edərək yazır: ***"Başınıza məsh çəkin, sonra sağ və sol ayaqlarınızı üç dəfə yuyun! Çünki, mən Peyğəmbəri ﷺ bu cür dəstəmaz alan gördüm."***

"Müstədrək əl-Vəsail" 1/305.

**Əli** *(radiyallahu anhu)* deyir: "Dəstəmaz almaq üçün oturmuşdum. Elə bu vaxt Peyğəmbər ﷺ gəldi və mənə gözəl şəkildə dəstəmaz almağın qaydasını öyrətdi. *Mən ayağımı yuduğum vaxt,* o ﷺ mənə dedi: ***"Ey Əli! Barmaqlarının arasını da yu ki, sənə Cəhənnəm odu toxunmasın."*** "Təhzib əl-Əhkam" 1/93.

**İmam Cəfər əs-Sadiq** *(rahiməhullah)* demişdir: ***"Əgər başa məsh çəkməmiş ayaqları yusan, gərək qayıdıb başa məsh çəkəsən və sonra ayaqları yuyasan."***
"Kitab əl-Kəfi" 3/25 və ya 35. ("Kitab əl-Kəfi"ni şərh edən şiə alimlərindən Məclisi və Bəhbudi bu hədisin etibarlı və səhih bir hədis olduğunu qeyd ediblər. Bax! Məclisi: "Miratul-Uqul" 13/113, Bəhbudi "Səhih əl-Kəfi" 1/190)

**Əhli-Beyt Məzhəbi Silsiləsindən 5-ci hissə**

**Müəllif:**

**Əbu Zeyd**

## Ramazan ayında qılınan Təravih namazı barədə: Sünnətdir yoxsa bidət?

✍ Ramazan ayında hər gecə İşa namazından sonra camaat şəklində Təravih namazını qılmaq, bəzilərinin iddia etdiyi kimi Ömərin (radıyallahu anhu) ortaya çıxartdığı bir bidət (yenilik) yox, əksinə, Peyğəmbərimizin ﷺ, onun Əshabının və Əhli-Beytinin sünnətidir. Bu namazı Allah Rəsulu ﷺ öz zamanında bir neçə gün camaatla birgə qılmış və daha sonra camaatın sayının çoxluğunu görərək və müsəlmanlara fərz (vacib) olacağı qorxusu ilə camaatla qılmağı tərk etmişdir. Allah Rəsulunun ﷺ vəfatından; yəni vəhy kəsildikdən və dolayısı ilə artıq bu namazın fərz olma qorxusunun da aradan qalxmasından sonra, Ömər ibn Xəttab (radıyallahu anhu) öz xilafətində yenidən bu sünnəti dirçəltmiş və insanları Ramazan gecələrində vahid bir imamın arxasında toplamışdır. Onun vəfatından sonra da bu sünnət həm Osmanın, həm də Əlinin (radıyallahu anhumə) xilafətləri dönəmində davam etdirilmiş və bu günəcən də qorunub saxlanılmışdır. Hal-hazırda bütün dünya müsəlmanları (şiələr istisna) bu sünnətə əməl etməkdə və Ramazan gecələrində məscidləri bu ibadətlə bəzəməkdədirlər.

📖 **Əli ibn Əbi Talib** (radıyallahu anhu) Ramazan gecələrində Kufə məscidlərinin yanından keçdikdə, insanları camaat şəklində gecə namazı qılan görmüş və dua edərək belə demişdir: ***"Ey Xəttabın oğlu! Sən məscidlərimizi Quran qiraəti ilə nurlandırdığın kimi, Allah da sənin qəbrini nurlandırsın!"*** [Mərvəzi *(vəfatı h.294)* "Muxtasar Qiyamul-Leyl" sh.217, Əcurri *(vəfatı h.360)* "əş-Şəria" 1239]

❍ "**Peyğəmbər** ﷺ Ramazan ayında nafilə namazlarını çoxaldardı. Gecənin ilk üçdə birindən sonra namaz qıldıqda, <u>insanlar da onun arxasında namaza durardılar</u>."
(Kuleyni "əl-Kəfi" cild: 4, 6636-cı rəvayət. Məclisi "Kitab əl-Kəfi"yə yazdığı şərhində; "Miratul-Uqul" 16/378-də bu hədisin səhih olduğunu qeyd edir)

❍ "**Peyğəmbər** ﷺ Ramazan ayında gecənin ilk üçdə birindən sonra nafilə namazlarını çoxaldardı. <u>İnsanlar da onun arxasında toplanar və onunla birgə namaz qılardılar. İnsanların sayı çoxaldıqda, onları tərk etdi və evinə girdi</u>..."
("əl-İstibsar" 1/461 hədis: 1795, "Təhzib əl-Əhkam" 3/60 hədis: 205)

❍ **Cəfər əs-Sadiq** (rahimahullah) demişdir: ***"Ramazan ayında öz ailənə fərz və nafilə namazlarını qıldır, çünki mən də belə edirəm*** *(yəni, Ramazan ayında ailəmlə birgə camaat şəklində qılıram)*." ("Təhzib əl-Əhkam" 3/267 və ya 294 hədis: 762) ➪

• Məclisi "Təhzib əl-Əhkam"a yazdığı şərhində; "Məlazul-Əxyar" 5/505-də bu rəvayətin etibarlı və səhih olduğunu qeyd edir və sonra rəvayətdəki *"problemi"* hiss etdiyindən dolayı əl-ayağa düşərək deyir: "Ola bilsin ki, hədisdə qeyd olunan ***"Ramazan ayında öz ailənə <u>nafilə namazlarını</u> qıldır***" ibarəsi, təqiyyə əsasında deyilmiş bir sözdür."

# Əhli-Beyt Məzhəbi Silsiləsindən 6-cı hissə

**Müəllif:**

**Əbu Zeyd**

## 3-cü Şəhadətin: “Əşhədu ənnə Əliyyən vəliyyullah” deyilib-deyilməsi:

***Şiə mənbələrində azanla əlaqədar nəql olunmuş rəvayətlərdən bəziləri:***

❍ **Peyğəmbər** ﷺ, meracda ikən mələyin necə azan verdiyini nəql etmiş və ***üçüncü şəhadəti*** qeyd etməmişdir. *(“Təfsir əl-Qummi” 2/573: əl-İsra surəsi/1-ci ayənin təfsirində)*

❍ **Əli ibn Əbi Talibdən** (radıyallahu anhu) nəql olunmuş azandır: həmin azanda nə ***üçüncü şəhadət*** və nə də ki, ***“hayyə alə xeyril-əməl”*** qeyd olunmur.
*(“Məanil-əxbar” 1/130, “Vəsailuş-şiə və müstədrakuhə” 5/248. Şeyx Saduq deyir: hədisin ravisi **“hayyə alə xeyril-əməl”** ibarəsini təqiyyə səbəbi ilə rəvayət etməmişdir)*

❍ **Məhəmməd əl-Bəqirdən** (rahimahullah) rəvayət olunan azandır. Bu rəvayətdə də ***üçüncü şəhadət*** qeyd olunmur. *(“Vəsailuş-şiə və müstədrakuhə” 5/243)*

❍ **Cəfər əs-Sadiqdən** (rahimahullah) rəvayət olunan azandır. ***Üçüncü şəhadət*** qeyd olunmur. *(Tusi “əl-İstibsar” 1/305)*

❍ **İmam Rzanın** (rahimahullah) fiqhində qeyd olunmuş azandır. Bu mənbədə də ***üçüncü şəhadət*** qeyd olunmur. *(“Fiqhur-Rza” səh.96)*

**Xülasə; *Şiə məzhəbinin hədis qaynaqlarında azan və iqamənin sözləri ilə əlaqəli hədislərin sayı iyirmidən artıqdır. Bu hədislərin heç birində üçüncü şəhadət qeyd olunmur.***

Böyük şiə alimi ***şeyx Saduq*** 3-cü şəhadətin dində bir bidət *(yəni, sonradan uydurulub, dinə əlavə edilən bir xurafat)* olduğunu qeyd edərək demişdir: “Doğru-düzgün olan azan məhz budur. Bu azana heç nə artırılmaz və ondan heç nə əksildilməz. Allah Təfviz əhlinə *(Allahın Məhəmmədi və Əlini yaradıb daha sonra da göylərin və yerin idarəsini onların ixtiyarına verdiyinə inanan şiə məzhəbli etiqad sahiblərinə)* lənət etsin! Çünki, onlar özlərindən hədislər uydurmuş və uydurduqları bu rəvayətlər əsasında azana iki dəfə təkrarlanacaq ***“Muhəmmədun və ali Muhəmmədin xayrul-bəriyyə”*** *(yəni, Məhəmməd və onun ailəsi yaradılmışların ən xeyirlisidir)* ibarəsini əlavə etmişlər. Həmin uydurduqları rəvayətlərin bəzilərində isə, “Əşhədu ənnə Muhəmmədən rasulullah” şəhadətindən sonra, iki dəfə təkrarlanacaq ***“Əşhədu ənnə Əliyyən vəliyyullah”*** ibarəsi yer almaqdadır. Onlardan bəziləri isə bunun əvəzinə, iki dəfə təkrarlanacaq ***“Əşhədu ənnə Əliyyən əmirul-mumininə haqqan”*** ibarəsini rəvayət etmişlər. Əlinin, Allahın vəlisi və möminlərin haqq olan əmiri, Məhəmmədin və onun ailəsinin də yaradılmışların ən xeyirlisi olmasında şəkk yoxdur. Lakin, bütün bunlar azanın tərkib hissəsindən deyil. Mən bunu ona görə qeyd etdim ki, qoy aramızda olan saxtakarlar və imamlar adına yalan danışan Təfviz əhli azana etdikləri bu əlavələr ilə tanınıb bilinsinlər.” **(Şeyx Saduq “Mən lə yəhduruhul-fəqih” 1/203)**

Əhli-Beyt Məzhəbi Silsiləsindən 7-ci hissə

✍ Əbu Zeyd

## Bəzi nümunələr ilə Əhli-Beyt imamlarının Tövhid əqidəsi: Sünni və Şiə mənbələrində

### *Əhli-Sünnətin tabe olduğu Əhli-Beyt*

• **Əli (radiyallahu anh)** Əbul-Həyyac əl-Əsədiyə belə demişdir: ***"Vaxti ilə Peyğəmbərin ﷺ məni vəzifələndirdiyi bir iş ilə mən səni vəzifələndirməyimmi? Elə isə məhv etmədiyin bir timsal** (şəkil, büt) **və yerlə bir etmədiyin hündür qəbir buraxma!"*** *(Müslim hədis: 2243, Əbu Davud: 3218, Əhməd: 741)*

• **Əli ibn Hüseyn Zeynulabidin (rahiməhullah)** daima Peyğəmbərin ﷺ qəbrinin yanına gəlib, orada dua edən adamı bu əməlindən çəkindirmiş və ona belə demişdir: Sənə atamdan, o da babamdan, o da Peyğəmbərdən ﷺ eşitdiyi bir hədisi nəql edimmi? ***"Mənim qəbrimi bayram yerinə, evlərinizi də qəbirstanlığa çevirməyin! Mənə dua edin, siz harada olsanız duanız mənə çatacaqdır."*** *(İbn Əbi Şeybə: 7542)*

• Süheyl ibn Əbi Süheyl Peyğəmbərin ﷺ qəbrini görəndə ona sarılmış və əlini ona sürtmüşdür. Bunu görən **Həsən ibn Həsən ibn Əli ibn Əbi Talib (rahiməhullah)** ona doğru bir daş atmış və onu bu əməlindən çəkindirmişdir. *("Hədisu Əli ibn Həcər əs-Sədi": 436, İbn Asakir 13/62, Əbdürrəzzaq: 6726)*

• **Məhəmməd əl-Bəqir (rahiməhullah)** vəsiyyət edərək demişdir: ***"Qəbrimi yerdən yüksək etməyin!*** *(Duləbi "əl-Kunə vəl-Əlqab" 1/278)*

### *Şiələrin təqdim etdiyi "Əhli-Beyt yolu"*

• ***Əli, Allahın rububiyyətinin (rəbliyinin) bir parçasıdır.*** *("Şərhuz-ziyarətul-cəmiatil kəbira" 1/70)*

• ***İmamlar yerin Rəbbidir.*** *("Təfsir əl-Qummi" əz-Zumər: 69 təfsirində)*

• ***Xəlifəsi Əbu Bəkr olan peyğəmbərin nə Rəbbi bizim Rəbbimizdir, nə də ki, peyğəmbəri bizim peyğəmbərimiz.*** *("Əl-Ənvarun-Noməniyyə" 2/278)*

• ***Qibləyə arxa çevirsən belə, imamların qəbrlərinə doğru namaz qılmaq olar.*** *("Bihar əl-Ənvar" 100/135 və ya 97/134 yaxud 41/26 "Kitabul-məzar" bölümündə)*

• ***Əgər səcdəyə qapanaraq 100 dəfə; "ya Əli, ya Məhəmməd! Mənə yardım et, köməyimə çat!" desən və nəfəsin kəsilənə qədər "imdad, imdad" deyə yalvarsan, problemin aradan qalxacaq.*** *("Müstədrəkul-Vəsail" 6/310)*

• ***Əgər namaz qılan, Kəbə evini qəsd edərək ona doğru yönəlsə şirk etmiş olar. Namazda Kəbəyə üz tutarkən məhz orada doğulan Əliyə yönəlməyi niyyət etməlisən.*** *("Cənnətul-Məva" 107)*

• ***İmamların məşhədlərində qılınan namazlar məscidlərdə qılınanlardan daha əfzəldir. Əlinin qəbri yanında qılınan namaz 200 min namaza bərabərdir.*** (*Xoi "Minhəcus-salihin" 562-ci və Sistani öz risaləsində 881-ci məsələ*)

• ***Kərbəla ziyarəti namaz, oruc və s. bütün əməllərdən, Məkkədən və Kəbədən də əfzəldir. Adi vaxtda edilən Kərbəla ziyarəti 20, Aşura günü edilən isə, milyon həccə bərabərdir. Ümumiyyətlə məsləhətdir ki, heç həcc etməyəsən; Camaat Arafa günü həcdə olarkən, sən Kərbəlada ol! Allah özü hər cümə axşamı mələkləri və peyğəmbərləri ilə birgə Hüseynin qəbrini ziyarət edir və s.*** *(Şiə məzhəbinin ən qədim və ən etibarlı kitablarından birisi olan "Kəmiluz-Ziyarət" kitabına və xüsusəndə; 38, 39, 58, 64, 70, 71-ci bölümlərə bax!)*

# İmam Əbu Bəkr əs-Siddiq ilə Cəfər əs-Sadiq arasındakı qohumluq bağı

**Cəfər əs-Sadiq daima fəxr edərək deyərdi:** ***"Əbu Bəkr məni iki dəfə dünyaya gətirib"***
**1-ci dəfə:** Cəfərin anası Ummu Fərva ⇨ Qasim ⇨ Muhəmməd yolu ilə.
**2-ci dəfə:** Cəfərin anası Ummu Fərva ⇨ Əsma ⇨ Əbdürrəhman yolu ilə.




➢ Görüldüyü kimi, Cəfər əs-Sadiq ana tərəfdən, imam Əbu Bəkr əs-Siddiqin nəslindəndir. Cəfərin anası Ummu Fərva da, həm ana, həm də ata tərəfdən imam Əbu Bəkrin nəticəsidir. Bu səbəblə, Cəfər əs-Sadiq daima fəxr edərək deyərdi: ***"Əbu Bəkr məni iki dəfə dünyaya gətirib"*** ("Umdatut-talib fi nəsəb əli Əbi Talib", "Cullul-marifə" çapı: səh.345, "Kəşful-ğummə fi marifətil-əimmə" 2/347 və ya 378, İbn ət-Taqtaqi "Əl-Asili" səh.149, "Təhzibul-kəmal" 5/75)

➢ Şiə alimi Kuleyni yazır: ***"...Əbu Abdullah (Cəfər əs-Sadiq), atası və babasının və Həsən ibn Əlinin, həmçinin anası Ummu Fərva bintu əl-Qasim ibn Muhəmməd ibn Əbi Bəkrin basdırıldığı əl-Bəqi qəbiristanlığında dəfn edildi. Ummu Fərvanın anası isə Əsma bintu Əbdürrəhman ibn Əbi Bəkrdir."*** ("Əl-Kəfi", "Mənşuratul-fəcr" çapı: 1/300, digər çapda: 1/472)

➢ Anası Ummu Fərva elmli və təqvalı bir qadın idi. Babası Qasim ibn Muhəmməd ibn Əbi Bəkr isə zamanının ən böyük fəqihlərindən və Cəfər əs-Sadiqin müəllimlərindən olub. (Bax! Kuleyni "əl-Kəfi" 4/428, Zəhəbi "Siyər Əaləm ən-Nubələ" 18 və 117-ci bioqrafiyalar)

## Kərbəla Əzadarlarına Töhfə

❍ **Ölü üçün ağlayıb, ağı demək:** Peyğəmbər ﷺ demişdir: ***"Ölü üçün ağı demək, cahiliyyə dönəminin adətlərindəndir."*** *(Şeyx Saduq "Mən lə yəhduruhul-fəqih" 4/271-272, Hurr əl-Amili "Vəsəil əş-Şiə" 2/915, Məclisi "Biharul-Ənvar" 82/103)*

Peyğəmbər ﷺ demişdir: ***"Allahın qəzəb etdiyi, lənətlənmiş iki səs var: müsibət anında olan ağı səsi ilə nemət anındakı səs (yəni, çalğı səsi)."*** *(Məclisi "Biharul-Ənvar" 82/101, Nuri Təbərsi "Müstədrək əl-Vəsail" 1/144)*

İmam Cəfər əs-Sadiq (rahiməhullah) demişdir: ***"Ölmüş bir kəs üçün ağı deyib, paltarı cırmaq icazəli deyil."*** *(Kuleyni "əl-Kəfi" 3/225)*

❍ **Üzə və dizə döymək:** Peyğəmbər ﷺ demişdir: "***Üzünə döyən, yaxasını cıran bizdən deyil."*** *(Nuri Təbərsi "Müstədrək əl-Vəsail" 1/144)*

İmam Cəfər əs-Sadiq (rahiməhullah) demişdir: ***"Müsibət anında əlini dizinə döyənin əməlləri puç olar."*** *(Hurr əl-Amili "Vəsəil əş-Şiə" 2/914)*

❍ **Qara paltar geyinmək:** Əli (radıyallahu anhu) demişdir: ***"Qara paltar geyinməyin. Çünki, bu Fironun libasıdır."*** *(Şeyx Saduq "Mən lə yəhduruhul-fəqih" 1/163, Hurr əl-Amili "Vəsəil əş-Şiə" 3/278)*

❍ **Qadınlara müraciət:** Peyğəmbər ﷺ qızı Fatiməyə nəsihət edərək demişdir: ***"Mən öldükdə, mənə görə üzünü cırma, mənə ağı demə, qışqırıb-bağırma."*** *(Təfsir "Nur əs-Səqəleyn" 5/308, Məclisi "Biharul-Ənvar" 82/77)*

Həmçinin, Peyğəmbər ﷺ ağı deyən və onu dinləyən qadınları lənətləmişdir. *(Məclisi "Biharul-Ənvar" 82/93)*

Hüseyn ibn Əli (radıyallahu anhu) Zeynəbə belə demişdir: ***"Ey bacı! Allahdan qorx və bilki, yerdə və göydə olan hər kəs ölümü dadacaq. Allahın Üzündən başqa hər şey həlak olacaq. Ey bacım! Səni Allaha and verirəm, əgər mən öldürülsəm, mənə görə yaxanı və üzünü cırma, mənə ağı demə!"*** (Qeyd: ixtisarla tərcümə edildi) *(Abbas Qummi "Muntəhəl-Aməl" 1/481, İbn Tavus "əl-Məlhuf" sh.50, Məclisi "Biharul-Ənvar" 45/3)*

❍ **Aşura günü oruc tutmaq:** Əli (radıyallahu anhu) demişdir: ***"Məhərrəmin doqquz və onuncu gününü oruc tutun. Çünki, bu bir ilin günahlarına kəffarədir."*** *(Kaşani "əl-Vafi" 7/13, Hurr əl-Amili "Vəsəil əş-Şiə" 7/337)*

Məhəmməd əl-Bəqir (rahiməhullah) demişdir: ***"Aşura orucu bir ilin günahlarını silər."*** *(Tusi "əl-İstibsar" 2/134)*

## Əhli-beyt imamlarının şiələr barədə dedikləri

❍ *Əli ibn Əbi Talib demişdir:* **"Ey kişiyə oxşayıb kişi olmayanlar! Uşaq düşüncəli və qadın ağıllılar! Nə yaxşı olardı, mən sizi heç görməyəydim və tanımayaydım. Allaha and olsun ki, peşmançılıqdan, kədərdən yaxa qurtara bilmirəm. Allah sizi öldürsün! Qəlbimi irinlə doldurmusunuz, köksümü qeyzlə yükləmisiniz. Mənə sinə dolusu töhməti qurtum-qurtum uddurmusunuz. Mənim rəyimə mənə qarşı üsyan etməklə və məni arada qoyub qaçmaqla zay etmisiniz..."** *("Nəhcul-Bəlağə" səh.70-71 Beyrut çapı)*

❍ *Həsən ibn Əli demişdir:* **"Allah and olsun, mən bu fikirdəyəm ki, Muaviyə mənim üçün bunlardan daha yaxşıdır. Bunlar deyirlər ki, mənim şiələrimdirlər, özləridə mənim qətlimi istəyirlər ki, malıma sahib dursunlar. Allaha and olsun ki, yaxşı olar ki, mən Muaviyə ilə əhdi-peyman bağlayım, özümü ölümdən qurtarım, ailəmin təhlükəsizliyini təmin edim, nəinki onlar (şiələr) məni öldürsünlər, nəslim və ailəm yox olsun."** *(Təbərsi "əl-İhticac" 2/9 Mənşurat şərif Rza çapı)*

❍ *Əli ibn Hüseyn Zeynulabidin demişdir:* **"Yəhudilər Üzeyri elə sevdilər ki, onun barədə dediklərini dedilər (yəni həddi aşdılar). Üzeyr onlardan, onlar da Üzeyrdən deyillər. Nəsranilər də İsanı elə sevdilər ki, onun barədə dediklərini dedilər. İsa onlardan, onlar da İsadan deyillər. Biz əhli-beytin də bu haldan nəsibimiz var. Beləki, bizim şiələrimizdən də bir dəstə bizi sevəcək və yəhudilərin Üzeyr, nəsranilərin İsa barədə həddi aşdıqları kimi, bizim barəmizdə də həddi aşacaqlar. Biz onlardan və onlar da bizdən deyillər."**
*(Tusi "İxtiyar mərifətur-ricəl" səh.112-113 Müəssəsə ən-nəşrul-İsləmi çapı)*

❍ *Məhəmməd əl-Bəqir demişdir:* **"Əgər insanların hamısı bizim şiələrimiz olsaydılar, onların 4/3-ü bizim barədə şəkdə, qalanları isə axmaq olardı."** *(Tusi "İxtiyar mərifətur-ricəl" səh.179 Müəssəsə ən-nəşrul-İsləmi çapı)*

❍ *Cəfər ibn Məhəmməd demişdir:* **"Allahın munafiqlər barədə nazil etdiyi hər bir ayəsi, özünü bizim tərəfdarlarımız olduğunu iddia edənlər (şiələr) haqqında da keçərlidir."** *(Məclisi "Bihar əl-Ənvar" 65/166)*

❍ *Musa ibn Cəfər demişdir:* **"Mən öz şiələrimi başqaları ilə müqayisə edəndə onları ancaq boşboğaz gördüm, onları imtahan etdim, amma mürtəd gördüm."** *(Kuleyni "əl-Kəfi" 8/191 və ya 228)*